Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir



# Padşah Davud (2-ci Hissə)

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Lazarus; Alastair Paterson

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2021 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.

Davud İsrailin cənubundakı
Yəhudanın padşahı idi.
Ancaq Şaulun oğlu
İş-Boşet padşah
kimi İsrailin
qalan hissəsini
götürdü.
Yeddi il
vətəndaş
müharibəsi
oldu. Ancaq
Davud daha
da güclənirdi.



Nəhayət, padşah
İş-Boşet öz iki əsgəri
tərəfindən öldürüldü.



Sonra İsrailin bütün qəbilələri Davudun yanına gəldi və onu İsrail üzərində padşah olaraq məsh etdi.  Nəhayət, Davud bütün xalq üzərində padşah oldu.



Padşah Davudun etdiyi birinci şey Yerusəlimi ələ keçirmək oldu.  Ora Davudun şəhəri kimi tanındı.
O, oranı düşmənlərə qarşı güclü bir qala kimi bərpa etdi.
Yerusəlimdən Davudun ordusu Filiştliləri və İsrailin digər düşmənlərini zəbt etməyə getdi.





Sonra padşah Davud Allahın Əhd sandığını Yerusəlimə gətirdi. Allahın Əhd sandığında On Əmr və Allahın Musaya verdiyi digər qanunlar var idi. Sandıq İsraillilərə Allahın müqəddəsliyini və Ona itaət etmək ehtiyacını xatırladırdı.



Davud ilk hökmranlıq illərində çoxlu döyüşlərdə vuruşmalı oldu. O, müdrik əsgər və Allahın bələdçiliyi üçün dua edən təvazökar adam idi.



Allahın sandığı çadırda ikən Davudun qəşəng bir evdə yaşaması onu narahat edirdi. Davud məbəd tikməyi qərara aldı. Allahın peyğəmbəri Natan ona irəli getməyi dedi.



Həmin gecə Allah Davuda xəbər göndərdi: “Mənim qulum Davud, Rəbb Özü sənə ev tikəcək. Ömrün başa çatıb atalarınla uyuyanda yerinə sənin övladını çıxaracağam və onun padşahlığını möhkəmləndirəcəyəm. O, Mənim ismimə ev tikəcək və onun şahlıq taxtını əbədi möhkəm edəcəyəm”.

Davud Şaulun ailəsindən sağ qalan hansısa bir adama kömək etmək istəyirdi. O yalnız Yonatanın oğlu Mefiboşeti tapdı. O şikəst idi. Davud dedi: “Sən mənim masamdan padşahın oğullarından biri kimi yemək yeyəcəksən”. Davud Mefiboşetə qarşı xeyirxah idi, çünki Yonatan onun ən yaxşı dostu idi.




Davud Allaha etibar etdikcə
və Ona itaət etdikcə, Allah
Davudun müvəffəqiyyət
qazanmasına kömək etdi.
Ancaq bir gün Davudun
həyatına dəhşətli bir kölgə
gəldi.  O, Yerusəlimdə qaldı
və ordusunu
döyüşə göndərdi.



Bir gecə o yuxuya
gedə bilmədi.
Beləliklə o, evinin
damına qalxdı və
oradan şəhərə baxdı.

Davud gözəl bir qadının yuyunduğunu gördü.  Onun adı Bat-Şeva idi.  Davud Bat-Şeva ilə günah işlətdi, baxmayaraq ki, onun əri Uriya Davudun cəsur əsgərlərindən biri idi.  Bat-Şeva sonra Davuda övladı olacağını deyəndə Davud öz günahının daha çox problemlər yaratdığını bildi.







Allaha tövbə etmək əvəzinə Davud öz günahını örtməyə çalışdı.  Bu heç vaxt alınmır!  O, uşağın öz uşağı olduğunu düşünəcəyinə ümid edərək, Uriyanı döyüş meydanından evə çağırdı.  Ancaq Uriya əsgər yoldaşları döyüşdə olarkən öz evində yatmadı.

Beləliklə, Davud hətta daha pis iş etdi.  O, Uriyanı məktub ilə döyüş meydanına göndərdi.  Məktubda deyilirdi ki, general Uriyanın döyüşdə ölməsindən əmin olmalıdır.  Uriya öldürüləndə Davud Bat-Şevanı özünə arvad etdi.





Allah Davuda etdiyi günahı göstərmək üçün Öz qulu Natanı onun yanına göndərdi.  Natan Davuda varlı və kasıb bir adam haqqında hekayə danışdı.  Zəngin adamın yüz qoyunu var idi.  Kasıb adamın isə öz qızı kimi bəslədiyi təkcə bir balaca quzusu var idi.

Yadelli biri varlı adamın evinə gələndə varlı adam ona yemək hazırlamaq üçün öz qoyunlarından birini kəsmədi. Əksinə, o, kasıb adamın quzusunu kəsdi.



Davud varlı adamın xudbinliyinə qəzəbləndi.  O qışqırdı: “Bunu edən adam ölümə layiqdir”.



Cəsarətli Natan Davuda dedi: “O adam sənsən!” Davudun etdiyi şey hekayədəki varlı adamın etdiyindən daha pis idi.





Allah Davuda onun necə pis olduğunu göstərdi. Davud da öz günahına görə peşman idi. O, Allaha dedi: “Mən Sənə qarşı günah işlətdim və şər iş gördüm”. Allah Davudun günahını bağışladı. Ancaq Bat-Şevanın körpəsi çox xəstə idi və doğuşdan qısa müddət sonra öldü.



Allah Davudu dəhşətli günahına görə bağışladı.  Sonra Bat-Şevanın başqa bir övladı, Süleyman oldu ki, o, Davuddan sonra böyük padşah oldu. Ancaq padşah Davudun digər övladları da var idi və onlar Davuda böyük kədər gətirdilər.

# Padşah Davud (2-ci Hissə)

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

2 Şamuel 1-12

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130


Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**